*Uşaqlar dünyanın bəzəyidir. Bu həssas təbəqənin isə dəstəyə, qayğıya ehtiyacı var. Azərbaycan dövləti sabahımız olan uşaqların hüquqlarının qorunması, onların hərtərəfli inkişafı istiqamətində gələcəyə hesablanmış tədbirlər görür.*

*1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili Səbinə Əliyeva ilə müsahibəni oxuculara təqdim edirik:*




# Uşaqlar gələcəyimizdir





*- 1 İyun Uşaqların Beynəlxalq Müdafiəsi Günü və bu əlamətdar gün dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da geniş şəkildə qeyd olunur. Ölkəmizdə uşaq hüquqlarının müdafiəsi ilə bağlı mövcud vəziyyət barədə fikirlərinizi bilmək istərdik.*

- Uşaqlar cəmiyyətin həssas təbəqəsidir və qloballaşan dünyada baş verən gərgin, ziddiyyətli proseslər fonunda onların hüquqlarının müdafiəsi xüsusi əhəmiyyət kəsb edir. Bu gün ölkəmizdə uşaq hüquqlarının etibarlı şəkildə təmin edilməsində, onların yüksək qayğı ilə əhatə olunmasında, hərtərəfli inkişafında, problemlərinin həlli istiqamətində bir sıra strateji sənədlərin, Dövlət proqramlarının və böyük layihələrin icrası uğurla həyata keçirilir. Valideynlərini itirmiş və valideyn himayəsindən məhrum olmuş, baxımsız, sosial təhlükəli vəziyyətdə olan azyaşlılara göstərilən sosial xidmətlərin kəmiyyət və keyfiyyətinin artırılması, sağlamlıq imkanları məhdud uşaqların cəmiyyətə inteqrasiyası, onların daha keyfiyyətli təhsil və tibbi xidmətlərlə təmin olunması məsələləri daim nəzarətdə saxlanılır.

Azərbaycan uşaqların müdafiəsi istiqamətində qəbul edilmiş bir sıra mühüm beynəlxalq konvensiyalara qoşulur. Beynəlxalq sənədlərdən irəli gələn öhdəliklərin həyata keçirilməsi və respublikamızın normativ-hüquqi aktlarının beynəlxalq hüquqi sənədlərə uyğunluğunun təmin edilməsi istiqamətində zəruri tədbirlər həyata keçirilir. Qeyd etmək istərdim ki, uşaq hüquqlarının müdafiəsi istiqamətində aparılan davamlı islahatlar nəticəsində bu sahədə güclü qanunvericilik bazası formalaşdırılmış, konkret müdafiə mexanizmləri yaradılmışdır.

Uşaq hüquqlarının müdafiəsi istiqamətində Prezident İlham Əliyevin müvafiq sərəncamları ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Uşaqlara dair 2020-2030-cu illər üçün Strategiyası" və "Uşaqlara dair Strategiyanın həyata keçirilməsi üzrə 2020-2025-ci illər üçün Fəaliyyət Planı" uğurla icra olunur.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva uşaqların hüquqlarının təmin edilməsi məsələsinə daim həssaslıqla yanaşır. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə xüsusi qayğıya ehtiyacı olan uşaqların zəruri xidmətlərlə təmin olunması istiqamətində mühüm addımlar atılır.

Hesab edirəm ki, ölkəmizdə uşaqlar daim qayğı və sevgi ilə əhatə olunurlar. Bu gün uşaqlarımızın milli-mənəvi dəyərlərimizə sadiq, vətənpərvər ruhda, cəmiyyətimizə, dövlətimizə faydalı vətəndaş kimi yetişməsində, daim yeni biliklər əldə etməyə çalışan şəxsiyyət kimi formalaşmasında dövlətimizlə yanaşı, hər birimiz məsuliyyət daşıyırıq.

Bu sahədə kifayət qədər nailiyyətlər əldə etməyimizə baxmayaraq, hələ də həllini gözləyən müəyyən məsələlər qalmaqdadır və hesab edirəm ki, hər birimiz bu istiqamətdə səylərimizi artırmalı, uşaqlarımızın xoşbəxt, firavan gələcəyi naminə səfərbər olmalıyıq.

*- Uşaq hüquqlarının müdafiəsi və təbliği ilə bağlı Ombudsman təsisatı tərəfindən hansı işlər həyata keçirilir?*

- Ombudsman təsisatı olaraq uşaq hüquqlarının müdafiəsi və təbliği məsələləri daim diqqət mərkəzində saxlanılır. 2021-ci ildən təsisatda uşaq hüquqları ilə bağlı ayrıca struktur bölmə - "Uşaq hüquqlarının müdafiəsi sektoru" yaradılmışdır. Qeyd etməliyəm ki, bu istiqamətdə fəaliyyətimiz çoxşaxəlidir. Belə ki, uşaq hüquqlarının müdafiəsi istiqamətində Ombudsmanın ünvanına daxil olan müraciətlər araşdırılır, müvafiq səlahiyyətli qurumlara sorğular göndərilərək müraciətlərin təmin olunması istiqamətində addımlar atılır. Həmçinin media subyektlərində, eləcə də sosial şəbəkələrdə dərc olunan uşaq hüquqlarının pozulması ilə bağlı xəbərlər dərhal nəzarətə götürülür, əlaqədar dövlət qurumları ilə birgə təxirəsalınmaz tədbirlər həyata keçirilir.

Ombudsman təsisatı, xüsusilə də uşaq hüquqlarının müxtəlif aspektləri üzrə maarifləndirmə tədbirlərinin təşkilinə xüsusi önəm verir. Mütəmadi olaraq Ombudsman Aparatı və regional mərkəzləri tərəfindən paytaxtda və ölkəmizin regionlarında azyaşlılar, valideynlər və uşaqlarla işləyən mütəxəssislər üçün maarifləndirmə tədbirləri təşkil edilir. Uşaq hüquqlarının təmini vəziyyətinin öyrənilməsi məqsədilə il ərzində dövlət uşaq müəssisələrinə başçəkmə və monitorinqlər həyat keçirilir, nöqsan və çatışmazlıqlar aşkar edilir, onların aradan qaldırılması məqsədilə müvafiq tövsiyələr verilir, təkrar başçəkmələr zamanı həmin tövsiyələrin icra vəziyyəti yoxlanılır.

Bununla yanaşı, Ombudsman təsisatı qanunvericiliyin təkmilləşdirilməsi prosesinə də töhfələrini verir. Məlumat üçün deyək ki, Ombudsmanın Azərbaycan Respublikasında insan hüquqlarının qorunması haqqında illik məruzələrində müxtəlif əhali qrupları ilə yanaşı, uşaq hüquqlarının müdafiəsinə dair çoxsaylı təkliflər irəli sürülmüşdür.

Daxil olan müraciətlər arasında alimentin ödənilməsində yaranan problemlərlə, eləcə də təhsil hüququnun təmin edilməsi ilə əlaqədar müraciətlər kəmiyyət etibarilə üstünlük təşkil edir. Bununla yanaşı, ünsiyyət hüququnun təmin olunmaması, qəyyumluq və himayə məsələləri ilə bağlı məhkəmə qərarlarının icra edilməməsi, sosial təminat hüququnun təmini, tibbi müayinə və müalicənin təşkili, uşaqların zorakılıqdan müdafiəsi və bu kimi digər məsələlər də daxil olan müraciətlərdə öz əksini tapmışdır. İstər ötən ildə, istərsə də əvvəlki illərdə bu istiqamətdə daxil olan müraciətlərin təhlili onu deməyə əsas verir ki, aliment tələbinə dair məhkəmə qərarlarının icrası sahəsində qanunvericiliyin təkmilləşdirilməsinə ehtiyac vardır.

Bir daha qeyd edim ki, ünvanlanan hər bir müraciət üzrə Ombudsmanın fəaliyyətinin hüquqi əsasını təşkil edən "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanunu ilə müəyyən edilmiş qaydada müvafiq tədbirlər görülür, pozulmuş hüquqların bərpası məqsədilə səlahiyyətli dövlət qurumlarına sorğular ünvanlanır, görülmüş işlərin nəticəsi barədə ərizəçilərə müvafiq cavablar verilir.

*- Səbinə xanım, Ombudsman təsisatının uşaq hüquqlarının müdafiəsi üzrə səlahiyyətləri barədə oxucularımıza da bir qədər geniş məlumat verməyinizi xahiş edirik.*

- Cəmiyyət və dövlətin davamlı olaraq inkişafı, mövcud ictimai münasibətlərin tənzimlənməsi sahəsində tətbiq olunan hüquq normalarının təkmilləşdirilməsi "Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında" Konstitusiya Qanununa müəyyən əlavələr və dəyişikliklərin edilməsini zərurətə çevirmişdir.

Qeyd edim ki, artıq ötən ildən Ombudsman təsisatına uşaq hüquqlarının müdafiəsi üzrə yeni səlahiyyətlər verilib. Ombudsman haqqında Azərbaycan Respublikasının Konstitusiya Qanunu ilə Müvəkkilə "Uşaq hüquqları haqqında" Konvensiyanın həyata keçirilməsinin monitorinqi və təşviqi üzrə müstəqil monitorinq mexanizminin funksiyalarının həyata keçirilməsi səlahiyyəti verilmişdir. Qanuna edilmiş əlavə və dəyişikliklər bu sahədə Ombudsman təsisatının həyata keçirdiyi fəaliyyətin daha da gücləndirilməsinə xidmət etməklə yanaşı, müasir dövrün çağırışları kontekstində qarşıya qoyulan vəzifələrə vaxtında və adekvat reaksiya verməyə də imkan yaradır.

*- İkinci Qarabağ müharibəsində əldə olunmuş Qələbədən sonra artıq dördüncü ildir ki, Uşaqların Beynəlxalq Müdafiəsi Günü ölkəmizdə daha yüksək əhvali-ruhiyyə ilə qeyd edilir. Bugünün uşaqları qalib ölkənin uşaqlarıdır...*

- Bəli, qeyd etdiyiniz kimi, Vətən müharibəsində əldə edilmiş Zəfərdən sonra bu gün xüsusi sevinclə qeyd olunur. Təəssüf hissi ilə bildirirəm ki, Ermənistanın torpaqlarımızın otuz ilə yaxın işğalı dövründə əziyyət çəkənlər arasında uşaqlar da olub. Onlar Birinci və İkinci Qarabağ müharibələrində əzizlərini, valideynlərini itirib, öz doğma torpaqlarından didərgin salınıblar. Xüsusilə qeyd etmək istərdim ki, işğalın fəsadlarından əziyyət çəkən şəxslər, o cümlədən uşaqlar dövlətimiz tərəfindən xüsusi diqqət və qayğı ilə əhatə olunublar. Sevindirici haldır ki, artıq həmin şəxslərin, eləcə də azyaşlıların öz yurd-yuvalarına qayıdışı təmin edilir.

Bu gün qalib xalqın nümayəndələri kimi, övladlarımızın üzərinə yeni vəzifələr düşür. Onlar bu vəzifələri layiqincə yerinə yetirməli, Vətəni və xalqı üçün layiqli vətəndaş olmağa çalışmalıdırlar.

Azərbaycan uşaqları, gəncləri hər zaman öz istedad və qabiliyyətləri ilə ölkəmizi beynəlxalq aləmdə layiqincə təmsil edir. Övladlarımız daim yeni biliklərə sahib olmağa can atmalı, öz üzərlərində daim işləməli, fəallıq nümayiş etdirməlidirlər. İnternetin sürətlə həyatımızın bütün sahələrinə daxil olduğu informasiya dövründə dünyada baş verən hadisələrdən, elmi-texniki tərəqqidən, yeniliklərdən daim xəbərdar olmalı, müasir informasiya texnologiyalarından, eləcə də sosial şəbəkələrdən səmərəli və məqsədyönlü şəkildə istifadə etməlidirlər. Xüsusilə də müasir dövrün tələbi olan xarici dil biliklərinin inkişafı uşaqlarımızın gələcəyi baxımından olduqca əhəmiyyətlidir.

Tövsiyə edərdim ki, ölkəmizin zəngin tarixi, mədəniyyəti, ədəbiyyatı, görkəmli ictimai, siyasi xadimləri, elm adamları, şair və yazıçılarımız, ümumilikdə Vətənimiz haqqında daim məlumatlı olsunlar.

Sonda bütün uşaqları 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü münasibətilə ürəkdən təbrik edir, onlara xoşbəxt gələcək arzulayıram.

*- Müsahibə üçün təşəkkürümüzü bildiririk.*

**Müsahibəni apardı:**
**Zümrüd ABDULLAYEVA,**
**"Respublika".**